# ORTA MƏKTƏB IX SİNİF KİMYA KURSUNDA ŞAGİRDLƏRİN XLORİD TURŞUSU İSTEHSALATI İLƏ TANIŞ EDİLMƏSI İMKANLARI VƏ YOLLARI

**M.S.Nuriyeva, A.Z. Məmmədova**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

*Məqalədə məqsəd şagirdlərə qeyri-üzvi maddələrin istehsalatı ilə bağlı bilikləri daha dərindən mənimsətmək, kimya istehsalatına maraq yaratmaq,şagirdlərin bu mövzuda qazandıqları bilik və bacarıqları məharətlə təcrübəyə tətbiq etmələrinə nail olmaqdır. Qeyri-üzvi maddələrin istehsalatının öyrədilməsi prosesinin sistemləşdirilmiş qruplar üzrə şagirdlərə mənimsədilməsi qeyd edilmişdir. Şagirdlərin xlorid turşusu istehsalatının texnoloji prosesləri və texnoloji sxemləri ilə əyani şəkildə tanış edilməsi, həmçinin bu mövzuda Orta Təhsil Müəssisələrində kimya fənnindən sinifdənxaric dərslərinin təşkili zamanı müəyyən zavod və fabriklərə ekskursiyaların təşkil olunması istiqamətində müəyyən tədbirlərin həyata keçirilməsi ön plana çəkilmişdir*

İstehsalat xarakterli mövzuların tədrisində məlum olan anlayışlarla yeni anlayışları əlaqələndirərək şagirdlərdə kimya istehsalatının ümumi anlayışlar sistemi haqqında təsəvvürlər inkişaf etdirilir. Qeyd etmək lazımdır ki, hazırki dövrdə digər ölkələrlə yanaşı kimya respublikası adlanan Azərbaycanda da kimya elmi sürətlə inkişaf edərək son dərəcə yüksək nailiyyətlər əldə etmişdir. Kimya elmi və onun nailiyyətlərinin istehsalata tətbiqi nəticəsində yaradılan kimya sənayesinin inkişafı məktəblərdə bir dərs predmeti kimi öyrədilir ki, bu da kimya istehsalatının müasir dövrümüzdə daha da təkmilləşdirilməsinə şərait yaradır.

Hər bir maddənin istehsalına aid kimya dərsi təxminən aşağıdakı plan üzrə aparıla bilər:[1]

a) maddənin xassəsinin qısa təkrarı
b) maddənin mühüm birləşmələri
c) bu birləşmələrdən elementin çıxarılması
d) maddəni istehsal etmək üçün laborator qurğusu
e) maddənin laboratoriyada istehsalı
f) maddənin sənayedə alınması
g) maddələrin tətbiqi (yalnız proqram çərçivəsində tanış edilir).

Biz şagirdlərə istehsalatla bağlı mövzuları tədris etdiyimiz zaman təkcə sintetik vasitələrin deyil, təbii proseslərin də kimyanın məhsulu olduğunu qeyd etməli, bu istiqamətdə şagirdlərin maraq və meylinin artırılması məqsədilə istehsalat prosesini gündəlik həyatla əlaqələndirməli, bu mövzuyla bağlı müəyyən tədbirlər həyata keçirməliyik. Bununla əlaqədar olaraq ali məktəblər orta

ümumtəhsil məktəbləri ilə əməkdaşlıq etməli, onları hamiliyə götürməli və bu istiqamətdə məktəb müəssisəsində şagirdlərin peşə tərbiyəsini həyata keçirən birliklər yaradılmalıdır. Çünki, istehsalat xarakterli mövzuların tədrisi zamanı şagirdlərin hadisələri xüsusilə təcrübi yol ilə izləmələri və çıxara bildikləri nəticələrin elmi uzaqgörənliyinin fəaliyyət prosesində idraka təsirindən formalaşdırılan mühakimələrin dərinləşdirliməsi istehsalat xarakterli mövzuların dəyər və elmiliyinin şagirdlər tərəfindən yüksək səviyyədə mənimsənilməsinə xidmət edir. [2] Qeyd etdiyimiz prosesin əsasını məhz kimya dərslərində vacib əməliyyatlardan biri olan müşahidə təşkil edir. Orta təhsil müəssisələrinin kimya fənnindən sinifdənxaric dərslərinin təşkili zamanı müəyyən zavod və fabriklərə ekskursiyaların təşkil olunması, şagirdlərin istehsalatın texnoloji prosesləri ilə əyani olaraq tanış edilməsinə geniş imkanlar yaradır. Bu zaman şagirdlərə əyani şəkildə göstərilir ki, reaksiyaya daxil olan maddələrin qarışdırılma üsulundan asılı olaraq kimya istehsalatında texnoloji proseslər 3 qrupa bölünür:[5]

1) Düz axınlı proseslər – Bu zaman reaksiyaya daxil olan maddələr bir istiqamətdə hərəkət edir

2) Əks axınlı proseslər – Reaksiyaya daxil olan maddələr bir-birinin əksinə hərəkət edir.

3) Çarpaz axınlı proseslər – Maddələrdən biri digərinə nəzərən müəyyən bucaq altında hərəkət edir.

Artıq burada lazımi zavodlara təşkil etdiyimiz ekskursiyalar nəticəsində şagirdlərdə əks axınlı proseslərin kimya sənayesinin müasir texnoloji sistemlərində geniş istifadəsi haqqında müəyyən səviyyədə təsəvvürlər formalaşmış olur. Çünki, müşahidə nəticəsində aydın olur ki, düz axınlı ilə müqayisədə əks axınlı proseslərdə hazır məhsulun çıxımı daha çox olur. Məsələn, xlorid turşusunun istehsalı,sulfat turşusunun nitroz üsulu ilə istehsalı əks axınlı proses üzrə həyata keçirilir.

Şagirdlərin kimya istehsalatı ilə tanış edilməsinin ümumi prinsipləri aşağıdakılardır [1]:

Nümayiş təcrübələrini zavod qurğularındakı üsula yaxınlaşdırırlar:

- Hər hansı maddəni: məsələn, duzu istehsal edərkən əvvəla praktiki həyatda böyük əhəmiyyətə malik olan duzun şagirdlər tərəfindən proqram çərçivəsində istehsalına nail olurlar və onların necə və hansı normada istifadə edildiyini də öyrənirlər.

İstehsalatla bağlı mövzuların tədrisində müəllimin qarşısında duran başlıca vəzifə:Dərs zamanı keçirilən mövzuları bilavasitə praktikayla əlaqələndirmək, laboratoriyada sınaq şüşələrində, kimya stəkanlarında və ya kolbalarda kiçik miqyasda nümayiş etdirilən təcrübələrin kimya istehsalatında geniş miqyasda tətbiq olunduğunu şagirdlərə başa salmaq, laborator şəraitində istehsal edilən və xassələri öyrənilən hər hansı elementin və ya maddənin həyatda, istehsalatda və

kənd təsərrüfatında tətbiqi yollarını öyrətməkdən ibarətdir. Duzların istehsalını şagirdlərə tədris etdikdə qeyd edilməlidir ki, "İnsan bədənində olan duz- su ehtiyatlarının saxlanılmasını və çürümə bakteriyalarının aktivləşməsinin qarşısını alır". Duzun insan orqanizmində əhəmiyyəti ilə bağlı belə bir maraqlı fakta toxuna bilərik: "Hollandiyada bir vaxtlar cəza vasitəsi kimi məhbusları ancaq duzsuz çörək və su ilə qidalandırıblar". Bu cür misallar üzərində aparılan dərs şagirdlərdə dərsin gedişi zamanı gümrah əhval-ruhiyyə yaratmaqla yanaşı,dərsin keyfiyyətini yaxşılaşdırır.

Hər bir kimya müəllimi qeyri-üzvi maddələrin istehsalatının öyrədilməsi prosesini aşağıda göstərilən qruplar üzrə şagirdlərə mənimsətməlidir: [3]

- Əsas qeyri-üzvi sintez: turşuların,qələvilərin,duzların və mineral məhsulların sintezi;
- Zərif qeyri-üzvi sintez: qeyri-üzvi preparatların, reaktivlərin, dərman maddələrin sintezi
- Metallurgiya: qara və əlvan metallurgiya
- Silikat sənayesi: yapışdırıcı materialların,keramika məmulatlarının,şüşə istehsalı.

Kimyadan sinifdənxaric dərslərin təşkili zamanı xlorid turşusunun istehsalını tədris etdikdə mövzunu daha maraqlı qaydada şagirdlərə aşılamaq məqsədilə başlıca olaraq digər fənlərə inteqrasiya yaradarıq: Məsələn, biologiya fənninə sərbəst inteqrasiya edərək xlorid turşusu haqqında şagirdlərə ümumi məlumat verir və qeyd edirik ki, "Qəribə səslənsədə HCl canlıların çoxunun mədəsində vardır və onun mədədəki funksiyası həzm etməkdə oynadığı roldur, əgər mədədəki turşunun pH-ı 1 dən aşağı və ya turşunun pH-ı 2 dən çoxdursa mədədə problemlərin yaranması qaçılmaz olacaqdır. Daha sonra şagirlərə çardırılmalıdır ki, "Dərilərdə yanıqlara səbəb ola biləcəyindən laboratoriyada işləyərkən belə əlcəklərdən istifadə edilməlidir. Hər hansı təbəqəyə tətbiq edildikdən sonra bir müddət gözlənilməli və daha sonra bol miqdarda su ilə yuyulmalıdır. Həmçinin gözlərə qarşı allergik xüsusiyyətləri vardır. Günümüzdə plastik sənayedən qida sektoruna qədər bir çox sahələrdə tətbiq edilir. Xlorid turşusunun sənaye əhəmiyyətini bu cür qeyd edirik ki, "HCl dəmir məmulatlarının səthinin dəmir oksidlərindən təmizlənməsini təmin edir. Daha sadə şəkildə ifadə etsək, HCl oksid təbəqəsini yuyur, çünki oksid təbəqəsi olan yerdə dəmir yapışmır, xlorid turşusu ilə təmizlənir sonra yapışdırılır. Qeyd edilir ki, hidrogen-xlor qazının suda məhluluna xlorid turşusu və ya duz turşusu deyilir. Bununla əlaqədar olaraq əvvəlcə hidrogen-xlor qazının laboratoriya şəraitində istehsalı ilə şagirdləri tanış edirik. Biz bunu həm nümayiş, həm laboratoriya təcrubələri, həmdə ki, praktiki məşğələlər əsasında şagirdlərə aşılayırıq. İlk öncə biz nümayiş təcrübələri əsasında şagirdlərə hidrogen-xloridin alınmasını izah edirik. Qeyd etməliyik ki, nümayiş təcrübələrinin keçirilməsində fəal şagirdləridə təcrübələrin

gedişinə müdaxilə etmələrinə şərait yaradırıq və xlorid turşusunun alınmasını aşağıdakı üsulla həyata keçiririk. Nəzəri cəhətdən qeyd edirik ki, turşuların alınmasında ən çox istifadə edilən üsul duzların turşularla qarşılıqlı təsiridir. Turşuların bu üsulla alınması zamanı götürülən başlanğıc duz kifayət qədər həll olan, götürülən turşu isə daha qüvvətli və az uçucu olmalıdır.[4] Bu zaman şagirdlərin "daha qüvvətli və az uçucu olan turşular" haqqında fikirlərini öyrənirik və şagirdlərlə birlikdə müəyyənləşdiririk ki,sulfat turşusu daha qüvvətli və az uçucudur. Ona görə də başqa turşuların alınmasında adətən ondan istifadə edilir.

**Təcrübənin aparılması**

Vürs kolbasında 5-10 qram natrium-xlorid götürürük, onu az miqdarda su ilə isladırıq. Damcı qıfına bir qədər qatı sulfat turşusu məhlulu tökürük və qazaparan borunun ucunu quru sınaq şüşəsinə daxil edirik, qeyd etməliyik ki, borunun ucu sınaq şüşəsinin dibinə yaxın olmalıdır. Sınaq şüşəsinin ağzına pambıq tıxamalı.Vürs kolbasını qaz lampası alovunda zəif qızdıraraq, natrium-xloridin üzərinə damcı-damcı sulfat turşusu məhlulu axıtmalı. Sınaq şüşəsində ağ duman göründükdə qızdırmanı dayandırmalı. Qazaparanborunu sınaq şüşəsindən çıxarmalı, sınaq şüşəsinin ağzını barmaqla örtməli, onu ağzı aşağı tutaraq içərisində su və göy lakmus məhlulu olan kasaya daxil edirik. Sınaq şüşəsinin ağzını suyun altında açırıq və şagirdlər suyun sınaq şüşəsində yuxarı qalxmasını müşahidə edirlər və müəllim şagirdlərin iştirkı ilə lövhədə yekun tənlikləri qeyd edir.

$NaCl + H_2SO_4 = NaHSO_4 + HCl$ və ya

$2NaCl_{(bərk)} + H_2SO_{4(qatı)} = Na_2SO_4 + 2HCl$

**Tapşırıq 1.**

Hidrogen xloridin suda həll edilməsindən alınan xlorid turşusunu altı sınaq şüşəsinə bərabər tökün. 1 ci sınaq şüşəsinə lakmus kağızı salın, 2 ci sınaq şüşəsinə sink parçaları, 3 cü sınaq şüşəsinə mis parçaları, 4 cü sınaq şüşəsinə mis(ıı) oksid tökün və məhlulları qızdırın. 5 ci sınaq şüşəsinə təzə hazırlanmış mis (II)hidroksid,6 cı sınaq şüşəsinə təbaşir və ya başqa karbonat əlavə edin.Göstərilən maddələr arasında gedən reaksiya tənliklərini yazın.

- 1 – ci sınaq şüşəsində lakmus qızarır
- 2 ci sınaq şüşəsində $H_2$ ayrılır.

$HCl + Zn = ZnCl_2 + H_2$

- 3cü $HCl + Cu$ = getmir
- 4cü $CuO + 2HCl = CuCl_{2(göy)} + H_2O$
- 5 ci $Cu(OH)_{2(mavi)} + 2HCl = CuCl_{2(göy)} + H_2O$
- 6 cı $2HCl + CaCO_3 = CaCl_2 + CO_2 + H_2O$

**Tapşırıq 2.**

10 mol NaCl-in sulfat turşusu ilə qarşılıqlı təsirindən neçə qram və neçə litr(n.ş) hidrogen-xlorid qazı almaq olar

Reaksiya tənliyinə əsasən:

$2NaCl + H_2SO_4 = Na_2SO_4 + 2HCl$

10 mol (NaCl) ——— x qram(HCl)

1 mol(NaCl) ——— 36,5 qram(HCl)

X=365 qram

10 mol(NaCl) ——— x litr (HCl)

1mol(NaCl) ——— 22,4 litr(HCl)

X=224 litr HCl

**Tapşırıq 3.**

28 q KOH ilə $H_2SO_4$-ün qarşılıqlı təsirindən neçə qram $K_2SO_4$ alınar.Mr(KOH)=56; Mr($K_2SO_4$)=174.

$2KOH + H_2SO_4 \rightarrow K_2SO_4 + 2H_2O$

28 qram (KOH) ——— x qram ( $K_2SO_4$)

112 qram(KOH) ——— 174 qram($K_2SO_4$)

X=43,5 qram($K_2SO_4$).

Sənayedə isə xlorid turşusu iki mərhələdə istehsal olunur: [5]

1) Hidrogenxlorid qazının alınması;

2) Hidrogenxlorid qazının su ilə absorbsiyası.

Qeyd edirik ki, bu qazı istehsal etmək üçün iki üsuldan istifadə edilir:

1) Sulfat üsulu – çatışmayan cəhətlərinə görə geniş tətbiq edilmir. Bu proses sulfat turşusunun natrium-xloridlə qarşılıqlı təsirinə əsaslanır və reaksiya tənliyi tərtib edilir:

$2NaCl + H_2SO_4 = Na_2SO_4 + 2HCl$

Qeyd edilir ki, reaksiya 500-550C temperaturda xüsusi sobalarda aparılır. Bu üsulun çatışmayan cəhətlərini şagirdlərə belə izah edirik ki, alınan qaz qarışığında yalnız 30-40% hidrogen-xlor qazı olur ki, buda onun əsasında alınan xlorid turşusunun həm çirkli,həm də aşağı qatılıqda olmasına səbəb olur. Həmçinin bu üsulda çoxlu miqdarda sulfat turşusu sərf olunur və əlavə yanacaq tələb olunur.

2) Sintetik üsul – Bu üsulun müsbət cəhətlərini şagirdlərə şağıdakı kimi izah edirik:

Bu prosesə alınan xlorid turşusu çox təmiz olur, çünki alınan qazın tərkibində 80-90% hidrogen xlorid olur. Sulfat turşusu sərf olunmur əlavə yanacaq tələb olunmur. Həmçinin bu üsulun şagirdlərə sxem və şəkillərlə, bir sözlə təsvir vasitəsilə izah edilməsi yüksək elmi nəticələrin alınmasına kömək edər.

İlk öncə “Hidrogen xlorid qazının adiobatik sistemdə udulma sxemi” ni videoproyektor vasitəsi ilə şagirdlərə nümayiş etdirək. [3]




Sxem. Hidrogen xlorid qazının adiabatik sistemdə udulma sxemi: 1- ikikonuslu soba; 2- borulu hava soyuducusu; 3- su soyuducusu; 4- adiabatik absorbsiya qüllələri; 5- qrafit soyuducu; 6- 31-33%-li turşu yığıcısı; 7- hazır məhsul; 8- sanitariya qülləsi; 9- kanalizasiyaya gedən 1-1,5%-li xlorid turşusu; 10- atmosferə buraxılan qazlar; 11- lampa

Daha sonra nümayiş etdirilən sxem əsasında şagirdlərin də istirakı ilə birlikdə sxemdeki işin gedişinə aydınlıq gətirilir. Qeyd edilir ki,ən geniş yayılmış üsul adiobatik üsuldur və bu halda proses hidrogen xlorid qazı udularkən ayrılan istiliyin hesabına gedir. Adiobatik prosesin özünü də şagirdlərə belə izah edirik: Adiobatik proses elə prosesə deyilir ki, burada sistem nə istilik miqdarı alır, nə də istilik miqdarı verir. Yəni, adiobatik proses zamanı verilən sistemlə ətraf mühit arasında istilik mübadiləsi olmur. Qeyd etməliyik ki, əgər dərs xlorid turşusunun istehsalatını həyata keçirən zavodlara ekskursiyalar zəminində təşkil olunarsa şagirdlərə birbaşa istehsalat aparatları üzərindən, əgər laboratoriya şəraitində təşkil olunarsa yuxarıdakı sxemi videoproyektor vasitəsi ilə şagirdlərə ətraflı izah edirik. Qeyd edilir ki,sobaya (1)lampanın (11)daxili borusundan xlor, xarici borusundan isə hidrogen qazı verilir. Qaz qarışığı sobada mavi alovla yanır (2800 $^0$C). Alınan hidrogen xlorid qazının temperaturu sobada 1100-1200 $^0$ C –dir. Soyumaq üçün qaz əvvəlcə borulu hava soyuducusundan (2) keçir və temperaturunu 500-700 $^0$ C yə qədər azaldır. Yenidən soyumaq üçün HCl qazı və reaksiyaya daxil olmayan hidrogen-xlorid qarışığı birlikdə su soyuducusuna (3) göndərilir. Burada qaz qarışığının temperaturu 150$^0$C yə qədər aşağı düşür. Həmin temperaturda qaz qarışığı adiobatik qülləyə (4)daxil olur. Yuxarıdan su ilə suvarılan qüllənin içərisi gil, şüşə və qrafit parçaları ilə doldurulur. Bu qaz qarışığının su ilə toxunma səthini artırır. Suda həll olan HCl qazı xlorid tuşusuna çevrilir. Qazın suda həll olması nəticəsində adiobatik qüllədə temperatur 300 $^0$ C yə yüksəlir. Bu temperaturda su qaynayaraq buxarlanır və deməli həm turşunun

temperaturu buxarlanmaya sərf olunan enerji hesabına aşağı düşür, həm də buxarlanma nəticəsində turşunun qatılığı artır. Alınan 31-33%-li xlorid turşusu qrafit soyuducudan (5) keçərək 50-60$^0$C-yə qədər soyuyur. Turşu bu temperaturda turşu yığıcısında (6) toplanır və oradan da hazır məhsul kimi (7) istehsalata göndərilir. Tam absorbsiya (latınca tərcümədən-udma deməkdir) olunmayan hidrogen xlorid, hidrogen, xlor qazları, su buxarı zərərsizləşdirilmək üçün absorbsiya qülləsinin yuxarısından xaric edilir və sanitariya qülləsinə (8) daxil olur. Bu qüllədə absorbsiya olunmayan (absorbsiya-müəyyən qazın mayedə həll olunmasıdır) HCl qazı su ilə udularaq 1-1.5% li xlorid turşusu kimi kanalizasiyaya (9), həll olmayan digər qaz qarışığı artıq zərərsiz olduğundan atmosferə (10) göndərilir. Videoproyektor vasitəsilə xlorid turşusunun sənaye üsulu ilə alınmasını nümayiş etdikdən sonra, onun tətbiq sahələrinidə şagirdlərə rəngli fonda nümayiş edirik. Xlorid turşusunun tətbiq sahələrini aşağıdakı kimi qeyd edirik:

Xlorid turşusu onun duzlarının,boyaların alınmasında,lehimlənmə işində metal səthinin oksidlərdən təmizlənməsində,yeyinti sənayesində(qlükoza və jelatin almaq üçün), dəri sənayesində (dərini aşılamaq üçün), təbabətdə (dərmanların alınmasında) istifadə olunur.

Bu mövzunun tədrisi zamanı artıq şagirdlərə aydın olur ki, xlorid turşusunun istehsalı zamanı açıq tipli sxemlərdən istifadə olunur. Çünki açıq tipli sxemlərdə ilkin maddələr son məhsulun alınmasına qədər ardıcıl olaraq bir aparatdan digərinə keçir.

Ümumilikdə şagirdlərə həm nəzəri cəhətdən, həm də əyani vasitələrdən istifadə etməklə çatdırılır ki, qeyri-üzvi maddələrin istehsal proseslərini – qeyri-üzvi maddələr texnologiyası öyrənir. Qeyri-üzvi maddələr texnologiyası: mineral turşular, duzlar, gübrələr, qələvilər, silikat materialları, əczaçılıq preparatları, əlvan, nadir və qara metallar, mineral boyaların istehsalını və istehsal vasitələrini əhatə edir.

## İstifadə edilmiş ədəbiyyat:

1. A.B.Əskərov, G.N.Quliyeva, A.A.Niyazova. Kimyanın tədrisi metodikası. Sumqayıt Dövlət Universiteti. 2011. 441 s.
2. R.Y.Əliyev,Ə.T.Əzizov.Kimyanın tədrisi metodikası.Bakı Universiteti nəşriyyatı,2006. 394 s.
3. A.M.Məhərrəmov, M.R.Bayramov, İ.Q.Məmmədov. Ümumi kimya texnologiyası. Dərslik.Bakı. "Çaşıoğlu" 2011. 308 s.
4. V.Abbasov, M.Abbasov, R.Əliyev və .b. Kimya 8-9 cu siniflər üçün dərslik, Bakı. "Təhsil".2013.
5. N.Ə.Səlimova,B.Ş.Şahpələngova.Ümumi kimya texnologiyası.Bakı.2013.

*М.С.Нуриева, А.З.Мамедова*

**Возможности и пути ознакомления учеников с производством соляной кислоты в курсе химии 9 класса средней школы**

**РЕЗЮМЕ**

В статье основная цель состоит из более глубокого освоения учениками знаний в связи с производством неорганических веществ, создания интереса к процессу химического производства, а также, применения на практике знаний и навыков, приобретенных по данной теме. Отмечен процесс освоения учениками систематизированных групп процесса обучения производства неорганических веществ. На передний план выдвигается осуществление определенных мероприятий в направлении очного ознакомления учеников с технологическими схемами и технологическими процессами производства соляной кислоты, в том числе, организации экскурсий в определенных заводы и фабрики во время организации внеклассных занятий по химии на данную тему в общеобразовательных учреждениях.

*M.S.Nuriyeva, A.Z.Mammadova*

**Opportunities and methods of acquaintance of secondary school IX class students with production of chloride acid in Chemistry courses**

**SUMMARY**

Goal of article is the deeper appropriation of students with skills in connection with production of non-organic substances, creation interest for chemical production, and succeeding for students to apply their skills and abilities obtained in this sphere to practice masterly. Appropriation of the process of teaching of production of non-organic substances to students on systematic groups has been indicated in this article. Visual acquaintance of students with technological processes and technological schemes of production of chloride acid, and as well as realization of definite measures in direction of organization of excursions to plants and factories during implementation of extra-class lessons from chemistry in secondary education institutions have been forwarded in this article.

**Açar sözlər:** hidrogen xlorid, qeyri-üzvi sintez, texnoloji proseslər, texnoloji sxem, sintetik üsul, adiobatik sistem.

**Ключевые слова:** хлористый водород, неорганический синтез, технологические процессы, технологическая схема, синтетический метод, адъювантная система.

**Key words:** Hydrogen chloride, non-organic synthesis, technological processes, technological schemes, synthetic method, adiabatic system.